# Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri sürətlə davam edir

***Azərbaycanın işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və inkişafı istiqamətində nəzərdə tutulan bərpa layihələri uğurla icra olunur, ərazilərin minalardan təmizlənməsi davamlı olaraq həyata keçirilir.***

***(ardı 4-cü səhifədə)***

# Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri sürətlə davam edir

*(əvvəli 1-ci səhifədə)*

Şuşa şəhərinin elektrik enerjisi ilə tam təchizatı artıq başa çatdırılıb. Su təminatının yaxşılaşdırılması, yeni su mənbələrinin tapılması istiqamətində isə indiyədək bir sıra tədbirlər həyata keçirilib. Bundan başqa, kanalizasiya sistemlərinin yenilənməsi, yeni yollar və küçələrin salınacağı da nəzərdə tutulub.

Prezidentin Şuşa şəhəri üzrə xüsusi nümayəndəsi Aydın Kərimov Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin rəhbərlərinin Şuşada keçirilən müşavirəsində bildirib ki, artıq burada 5 tarixi abidənin bərpa layihəsi yekunlaşıb. Üç mühüm abidədə - Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidlərində isə bərpa işlərinin yaxın vaxtlarda yekunlaşdırılması nəzərdə tutulub.

A.Kərimov, eyni zamanda, bu il üçün nəzərdə tutulan əsas layihələr sırasında şəhərdə 960 şagird yerlik məktəbin inşası olduğunu qeyd edib. Prezidentin xüsusi nümayəndəsi Şuşada bütün Qarabağ üzrə televiziya və radio yayımının müasir formada təşkili məqsədilə xüsusi teleqüllənin tikintisinə başlanılacağını da diqqətə çatdırıb. O, həmçinin gələn ilin sonunda ilk sakinlərin qəbul ediləcəyini və onlara evlərin açarlarının təhvil veriləcəyini vurğulayıb. Bunun üçün indidən sürətli hazırlıq tədbirləri görüldüyünü bildirən A.Kərimov Şuşada 23 binadan ibarət ilk yaşayış kompleksinin inşasına başlanıldığını da xatırladıb. Prezidentin xüsusi nümayəndəsi keçmiş məcburi köçkünlərin ən qısa zamanda doğma yurd-yuvalarına qayıtmalarının qarşıya mühüm vəzifə kimi qoyulduğunu qeyd edib.

Yeri gəlmişkən, xatırladaq ki, Prezident İlham Əliyev qədim mədəniyyət paytaxtımızın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib.

Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunan Şuşada icra edilən layihələr, yenidənqurma və abadlıq işləri şəhərin ümumi inkişaf konsepsiyasına uyğun həyata keçirilməklə yanaşı, Qarabağın incisi olan bu şəhərin tezliklə əvvəlki şöhrətinə qayıdacağına əminlik yaradır.

İndi Şuşanın əvvəlki şöhrətindən xəbər verən hər bir abidəsinə, onun hər bir divarına, hətta qopmuş köhnə daşına belə həssaslıqla yanaşılır, bu tarixi tikililərin bərpası üçün böyük səy göstərilir.

Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən tarixi tikililərdən biri də Mehmandarovların malikanə kompleksidir. İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb və hazırda bunun əsasında bərpa prosesi icra olunur.

Şuşa ilə yanaşı, işğaldan azad edilən digər ərazilərimizdə də bərpa-quruculuq işləri sürətlə aparılır. Bu ilin sonunadək Qarabağda ümumilikdə 100,27 meqavatt gücündə daha beş kiçik su elektrik stansiyasını (SES) bərpa etmək planlaşdırılır. Azad edilmiş ərazilərdə elektrik enerjisinin bərpa olunan enerji mənbələrindən istehsal olunacağı gözlənilir.

İşğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturunun qurulması layihələrinin icrası da xüsusi diqqət mərkəzində saxlanılır. Belə layihələrdən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, bu avtomobil yolunun uzunluğu 12 kilometrdir. Birinci texniki dərəcəli avtomobil yolu başlanğıcını Zəfər yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Avtomobil yolunda hazırda torpaq işləri icra edilir. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri reallaşdırılır.

Xatırladaq ki, Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

Burada onu da qeyd edək ki, Ağdamdan Şuşaya Əsgərandan keçməklə yeni avtomobil yolunun inşası da planlaşdırılıb. Bu barədə mətbuata müsahibəsində Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri Cemal Yanğın yeni yolun inşasının Türkiyənin “Kolin İnşaat” şirkəti tərəfindən həyata keçiriləcəyini bildirib.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq düşməndən təmizlənən digər ərazilərdə olduğu kimi, Kəlbəcərin də füsunkar şəhərə çevriləcəyi istiqamətində işlərə başlanılıb. Artıq şəhərin baş planı hazırlanaraq ölkə rəhbərinə təqdim edilib.





Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatovun sözlərinə görə, Kəlbəcərdə fərdi yaşayış evləri ilə yanaşı, 4-5 mərtəbəli binaların tikintisi də nəzərdə tutulub. Bərpa-quruculuq işlərinin şəhərin coğrafi relyefi nəzərə alınmaqla aparılacağı planlaşdırılıb.

İlqar İsbatov bildirib ki, baş plana əsasən, şəhərin ərazisi 237 hektara qədər böyüyəcək. Həmçinin, 17 min nəfər əhali üçün nəzərdə tutulan şəhərin uzunluğu 4 kilometrdən artıq olacaq.

Kəlbəcərdə salınacaq parklardan şəhərin əsrarəngiz təbiətini izləmək imkanı qazanılacaq. Şəhərdə Aşıq, İşğal və Zəfər muzeyləri tikiləcək. Kəlbəcərdə dağ memarlığı üslubunun yeni məzmunda inkişafı diqqətdə saxlanılacaq. Bütün bunlarla bərabər, şəhərdə “yaşıl enerji” və “ağıllı şəhər” konsepsiyalarından da istifadə olunacaq.

Kəlbəcərdən söz düşmüşkən, qeyd edək ki, rayonun bərpası zamanı turizm potensialının geniş miqyasda reallaşdırılması da nəzərdə tutulub. Gözəl təbiəti, əlverişli relyefi, tarixi abidələri, faydalı qazıntıları və mineral suları ilə diqqət çəkən rayon uzun illər işğal altında olarkən erməni vandalları tərəfindən istismar olunaraq talanıb. Vətən müharibəsi nəticəsində Azərbaycan öz sərvətlərini də düşmən əsarətindən azad edərək, onları əsl sahiblərinə qaytarıb. Artıq işğal, müharibə dövrü geridə qalıb. İndi bütün diqqət doğma Qarabağın yenidən qurulmasına yönəldilib.

Böyük Qayıdış ərəfəsində Kəlbəcərin “İstisu” sanatoriyasının tikintisinə başlanılıb. Bu il iyunun 26-da Prezident İlham Əliyev Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının təməlqoyma mərasimində iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına sanatoriyada görüləcək işlərlə bağlı məlumat verərək bildirib ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan “İstisu” İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottec də tikiləcək.

Bundan əlavə, diqqətə çatdırılıb ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan “İstisu” bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriyanın yeni görkəmdə tam bərpa olunacağı və əvvəlki şöhrətinin qaytarılacağı nəzərdə tutulub.

Yeri gəlmişkən, 1970-ci ildə keçmiş SSRİ hökumətinin qərarı ilə Kəlbəcər İstisu kurortu ümumittifaq əhəmiyyətli kurortlar siyahısına salınıb. Burada hər il 50 min nəfər müalicə olunub və istirahət edib.

Ötən əsrin 80-ci illərində sanatoriyanın tərkibində sudoldurma zavodu tikilib. Burada Yuxarı İstisu, Aşağı İstisu, Qoturlu və Tutğun mineral su yataqlarından gündə 800 min litrdən artıq mineral su istehsal edilib. 1993-cü ildə Kəlbəcər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra sanatoriya tamamilə dağıdılıb. Düz 29 ildən sonra İstisu sanatoriyasının yenidən qurulmasına start verilib.

Zəngilan rayonu ərazisində də “Azərişıq” ASC tərəfindən genişmiqyaslı işlər aparılır. Hazırda həyata keçirilən ən böyük layihə Zəngilanda tikintisi davam edən beynəlxalq hava limanının elektrik enerjisi ilə təchiz edilməsidir. Hava limanına ikidövrəli, 35 kV-luq, tam izolyasiyalı elektrik xətti çəkilir.

Qarabağ və Şərqi Zəngəzurun müdafiəsinə də xüsusi diqqət göstərilir. Bir neçə gün bundan əvvəl Xocavənddə yeni hərbi hissənin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Müdafiə Nazirliyinin bununla bağlı məlumatında bildirilir ki, döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, eləcə də şəxsi heyətin məişət şəraitinin təmin edilməsi məqsədilə hərbi şəhərcikdə qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanası, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri inşa olunub.

Şəxsi heyət qarşısında çıxış edən general-polkovnik Z.Həsənov Ali Baş Komandan İlham Əliyevin Kəlbəcərdə yeni komando hərbi hissəsinin açılışı zamanı Azərbaycan Ordusuna bir daha yüksək qiymət verdiyini diqqətə çatdırıb. Ölkə rəhbərliyi tərəfindən göstərilən etimadın doğruldulması üçün qarşıya qoyulan bütün vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini şəxsi heyətə bir daha xatırladıb.

Bu gün azad edilən ərazilərimizdə mühəndis işləri də sürətlə aparılır. Müdafiə Nazirliyindən verilən məlumata görə, nəqliyyat vasitələrinin təhlükəsiz və fasiləsiz hərəkətini təmin etmək məqsədilə Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən yollar minalardan təmizlənir, abadlaşdırılır, döyüş mövqelərinin və səngərlərin möhkəmləndirilməsi işləri həyata keçirilir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizə yeni təminat yolları çəkilir.

Azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində 17 min hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 6 min ədəddən artıq piyada əleyhinə, 2 min ədəddən artıq tank əleyhinə və 9400 ədəddən artıq partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib. Dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə ümumilikdə 140 kilometrdən artıq yeni təminat yolu çəkilib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***